**DOI:** https://doi.org/10.59849/2957-3882.2026.1.20

**UOT: 930.25**

# AZƏRBAYCAN İKİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ (SƏMƏD VURĞUNUN ŞƏXSİ ARXİVİNDƏKİ MƏKTUBLAR ƏSASINDA)

**Oruc QULİYEV**
*tarix üzrə fəlsəfə doktoru,*
*Mərkəzi Elmi Kitabxananın direktor müavini,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*
*E-mail: oruj_guliev@mail.ru*
*https://orcid.org/0009-0004-8463-4517*

*Daxilolma tarixi: 19.11.2025*
*Düzəliş tarixi: 02.02.2026*
*Nəşrə təsdiq tarixi: 11.05.2026*

## XÜLASƏ

Səməd Vurğun (1906-1956) Azərbaycan ədəbiyyatının görkəmli şairlərindən biridir. İkinci Dünya Müharibəsi (1939-1945), əsasən də Böyük Vətən Müharibəsi illərində (1941-1945) onun yaradıcılığı xüsusilə vətənpərvərlik ruhu ilə seçilirdi.

Müharibə dövründə Səməd Vurğun həm cəbhə bölgələrinə səfərlər etmiş, həm də xalqın ruhunu qaldırmaq üçün bir çox şeirlər, poemalar və çıxışlar yazmışdır. Onun bu dövrdəki yaradıcılığı xalqı qələbəyə inandırmaq, əsgərlərə mənəvi dayaq olmaq məqsədi daşıyırdı.

Əsgərlər onun şeirlərini oxuyur, əzbərləyir və ondan mənəvi güc alırdılar. Bu səbəbdən də bir çox döyüşçü birbaşa Səməd Vurğuna məktublar yazırdı.

Bu məktubların bir qismi sonradan müxtəlif arxivlərdə və müharibə dövrü mətbuatında (xüsusilə “Kommunist”, “Ədəbiyyat qəzeti”, “Azərbaycan” və s.) dərc olunmuşdur.

Məqalədə də böyük Azərbaycan şairi və dramaturqu, görkəmli ictimai xadim Səməd Vurğunun Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan şəxsi arxiv fonduna daxil edilmiş məktubları tədqiqata cəlb olunub. Həmin məktublardan məqsədli olaraq məhz 1941-1945-ci illərdə qələmə alınan nümunələr seçilib. Bu məktublar əsasında Azərbaycanın İkinci Dünya Müharibəsində iştirakı, azərbaycanlıların ön cəbhədəki qəhrəmanlığı və şücaəti, eyni zamanda arxa cəbhədəki fədakarlıqları haqqında qiymətli məlumatlar üzə çıxarılaraq təhlil edilib. S.Vurğunun döyüşən hərbi qulluqçulara və onların şairə yazdığı məktublardan savayı, yazıçı həmkarlarının, redaksiyaların müharibə illərində böyük sənətkara ünvanladığı məktublar da nəzərdən keçirilib. Azərbaycanın Böyük Vətən Müharibəsində iştirakı ilk dəfə konkret ədibin şəxsi arxivindəki epistolyar irs nümunələri əsasında öyrənilib.

**Açar sözlər:** Böyük Vətən Müharibəsi, Səməd Vurğun, məktublar, müharibə, şəxsi arxiv materialları

# АЗЕРБАЙДЖАН В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ (ПО МАТЕРИАЛАМ ПИСЕМ ИЗ ЛИЧНОГО АРХИВА САМЕДА ВУРГУНА)

**Орудж ГУЛИЕВ**
*доктор философии по истории,*
*заместитель директора Центральной научной библиотеки,*
*докторант Института рукописей имени*
*Мухаммеда Физули Национальной академии наук*
*E-mail: oruj_guliev@mail.ru*
*https://orcid.org/0009-0004-8463-4517*

*Дата поступления: 19.11.2025*
*Дата исправления: 02.02.2026*
*Дата утверждения к публикации: 11.05.2026*

## АННОТАЦИЯ

Самед Вургун (1906-1956) – один из выдающихся поэтов азербайджанской литературы. В годы Второй мировой войны (1939-1945), особенно в годы Великой Отечественной войны (1941–1945), его творчество отличалось патриотическим духом.

В годы войны Самед Вургун много путешествовал по фронту и написал множество стихов, эссе и речей, воодушевляя народ. Его творчество в этот период было направлено на то, чтобы убедить народ в победе и оказать моральную поддержку солдатам. Солдаты читали, запоминали и черпали в его стихах моральную силу. Поэтому многие солдаты писали письма непосредственно Самеду Вургуну.

Некоторые из этих писем впоследствии были опубликованы в различных архивах и в военной прессе (в частности, в газетах «Коммунист», «Литературная газета» и др.).

В статье исследованы письма великого азербайджанского поэта и драматурга, выдающегося общественного деятеля Самеда Вургуна, хранящиеся в его личном архивном фонде в Институте рукописей имени Мухаммеда Физули Национальной Академии Наук Азербайджана. Из этих писем целенаправленно были отобраны образцы, написанные именно в 1941–1945 годах. На основе данных писем выявлены и проанализированы ценные сведения об участии Азербайджана во Второй мировой войне, о героизме и мужестве азербайджанцев на передовой, а также об их самоотверженности в тылу.

Помимо писем С. Вургуна к воевавшим военнослужащим и писем, адресованных поэту солдатами, были рассмотрены также письма его литературных современников и редакций, направленные великому мастеру слова в годы войны. Впервые участие Азербайджана в Великой Отечественной войне изучено на основе образцов эпистолярного наследия, сохранившихся в личном архиве конкретного писателя.

***Ключевые слова:*** *Великая Отечественная война, Самед Вургун, письма, война, материалы личного архива*

# AZERBAIJAN DURING THE YEARS OF WORLD WAR II (BASED ON LETTERS FROM THE PERSONAL ARCHIVE OF SAMAD VURGUN)

**Oruj GULIYEV**
*PhD in History,*
*Deputy Director of the Central Scientific Library,*
*Doctoral Candidate at the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences*
*E-mail: oruj_guliev@mail.ru*
*https://orcid.org/0009-0004-8463-4517*

*Date of submission: 19.11.2025*
*Date of revision: 02.02.2026*
*Date of acceptance for publication: 11.05.2026*

## ABSTRACT

Samad Vurgun (1906-1956) is one of the prominent poets of Azerbaijani literature. During the Second World War (1939-1945), especially during the Great Patriotic War (1941-1945), his work was distinguished by its patriotic spirit.

During the war, Samad Vurgun traveled to the front lines and wrote many poems, essays, and speeches to raise the spirits of the people. His work during this period was aimed at convincing the people of victory and providing moral support to the soldiers.

Soldiers read, memorized, and drew moral strength from his poems. For this reason, many soldiers wrote letters directly to Samad Vurgun.

Some of these letters were later published in various archives and in the wartime press (in particular, "Communist", "Literary Newspaper", etc.).

The article studies the letters of the great Azerbaijani poet and playwright, prominent public figure Samad Vurgun, included in the personal archive fund preserved at the Institute of Manuscripts named after Mahammad Fuzuli of the Azerbaijan National Academy of Sciences. From these letters, samples written in 1941-1945 were purposefully selected. Based on these letters, valuable information about Azerbaijan's participation in the Second World War, the heroism and bravery of Azerbaijanis on the front line, as well as their sacrifices on the rear line were revealed and analyzed. In addition to the letters written by S. Vurgun to the fighting military personnel and their letters to the poet, letters addressed to the great artist by his fellow writers and editorial offices during the war years were also reviewed. For the first time, Azerbaijan's participation in the Great Patriotic War was studied on the basis of examples of epistolary heritage in the personal archive of a specific writer.

***Keywords:*** *Great Patriotic War, Samad Vurgun, letters, war, personal archive materials*

## Giriş

Adətən tarixi hadisələri ilkin tarixi mənbələr – fərmanlar, müqavilələr, sazişlər, tarixi şəxslər arasında aparılan rəsmi yazışlaşmalar, tarixnamələr, səfərnamələr, siyahıyaalmalar və digər mühüm tarixi qaynaqlar əsasında öyrənirlər. Tarixşünaslıqda arxiv sənədləri də mühüm qaynaqlar sırasındadır. Lakin bəzən şəxsi arxivlər tarixçilərin diqqətindən kənarda qalır. Halbuki xalqın tarixində mühüm iz qoymuş tarixi şəxsiyyətlərin şəxsi arxiv materialları da tarixşünaslıq baxımından faydalı informasiya resursudur. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan ölkəmizin elm və mədəniyyət xadimlərinə məxsus şəxsi arxivlər də belə önəmli mənbələrdəndir. İnstitutun şəxsi arxiv fondlarından biri də Azərbaycanın ilk Xalq şairi, görkəmli mədənyyət və ictimai xadim Səməd Vurğuna aiddir. 1941-1948-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, 1945-ci ildən Azərbaycan SSR EA-nın ilk təsisçilərindən və akademiklərindən biri, 1954-1956-cı illərdə vitse-prezidenti olmuş S.Vurğun xalq arasında böyük nüfuz sahibi olmuş və sevilmişdir. O həmçinin Azərbaycan SSR Ali Sovetinin deputatı və Beynəlxalq mədəni məsələr üzrə Komissiyanın sədri kimi dəfələrlə ölkəmizi xaricdə təmsil etmiş, bir çox milli əhəmiyyətli məsələlərin müzakirəsində həlledici rol oynamışdır. Təkcə Azərbaycanda deyil, onun sərhədləri xaricində də böyük nüfuza sahib olan tarixi simanın şəxsi arxivi, təəssüf ki, bu vaxta qədər tarixşünaslıq nöqteyi-nəzərindən tədqiqata cəlb olunmamışdır. Buna görə də onun şəxsi arxivindəki materialların, xüsusilə də məktubların araşdırılması arxivşünaslıq elmimiz üçün aktuallıq kəsb edir.

Müharibə dedikdə göz önünə təkcə silah-sursat, döyüş səhnələri deyil, həmçinin əsgər məktubları da gəlir. Dünyada bütün müharibələr zamanı məktublaşmaq ənənəyə çevrilib. Təkcə 1941-1945-ci illər Böyük Vətən Müharibəsi zamanı cəbhəyə 7 milyarddan çox məktub göndərilmişdir. Bu məktublar əsasən döyüşlərdə iştirak edən əsgərlər tərəfindən yazılmış, müharibənin dəhşətlərini, ailələrinə və sevdiklərinə olan həsrət hisslərini əks etdirən şəxsi məlumatları özündə ehtiva etmişdir. Məktublar həm də müharibə dövrünün sosial və siyasi həyatı haqqında ətraflı məlumat verir, eyni zamanda Azərbaycan xalqının müharibədəki rolunu və şücaətini göstərir. Bu da həmin dövrü dərindən anlamağa imkan verir.

Bu məktublar arxivlərdə saxlanılır və bizə bir çox hadisələr barədə məlumat verir. Belə arxivlərdən biri də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondunda dahi şairimiz Səməd Vurğuna məxsusdur.

Səməd Vurğunun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı şəxsi arxivində şairin bir sıra şəxsi sənədləri, avtoqraf əsərləri, məqalələri, xatirələri, fotoları və s. mühafizə olunmaqdadır. S.Vurğuna aid sözügedən sənəd-informasiya resursu Əlyazmalar İnstitutunda 27 nömrəli şəxsi arxiv fondda qorunur. S.Vurğunun haqqında danışılan şəxsi arxivinin təsvirini edən institutun mərhum əməkdaşları: filologiya üzrə fəlsəfə doktoru Mehri Məmmədova və Mərziyə Paşayeva fonda daxil olan materialları ədibin əsərləri, şəxsi sənədləri, xatirə qeydləri, məktubları, məqalələri, məruzələri, fotoları və s. olmaqla qruplaşdırmışlar (Məmmədova və Paşayeva (tərt. ed.), 2010). Bu materiallar sırasında məktublar tarixşünaslıq baxımından xüsusilə diqqəti cəlb edir. Alimlər həmin məktubları "S.Vurğunun məktubları" və "Müxtəlif şəxslərin S.Vurğuna məktubları olmaqla" iki qismə ayırmışlar. Biz də öz tədqiqatımızda bu prinsipə sadiq qalmışıq. Həmin məktubları Azərbaycan tarixində önəmli dönəmlərdən biri – İkinci Dünya Müharibəsi dövrünü sosial tarixi rakursdan görmək üçün incələmişik.

## Səməd Vurğunun yazdığı məktublar

S.Vurğunun şəxsi arxivindəki materiallar sırasında İkinci Dünya Müharibəsi, daha doğrusu, bu cahan savaşının SSRİ tarixində yaddaşlara həkk olunan adı ilə desək, Böyük Vətən Müharibəsi illərində qələmə alınan məktubları da qorunmaqdadır. Həmin məktubların hamısı avtoqrafdır, yəni böyük ədibin öz dəstxətti ilə yazılmışdır. Onların böyük əksəriyyəti döyüşçülərə ünvanlanmışdır.

Məktublar içərisində S.Vurğunun İsrafil Məmmədova Azərbaycan dilində, ərəb əlifbası ilə yazdığı məktub xüsusi diqqətəlayiqdir. Ərəb əlifbası ilə Azərbaycan dilində yazılmış həmin

məktubda şair döyüşçünü cəbhədəki uğurları ilə təbrik etməklə kifayətlənməmiş, həm də ona hansı xalqın nümayəndəsi, necə bir qəhrəman nəslin davamçısı olduğunu xatırlatmışdır:

*“Əzizimiz İsrafil!*

*Sənin bu yerdə vətən müharibəsində göstərdiyin hünər və qəhrəmanlıq bütün sovetlər torpağına məlumdur. Sənin böyük cəsarətin, vətənə, xalqa məhəbbətin bizi nə qədər sevindirdi. Sən: “Vətən uğrunda, Stalin uğrunda”, – deyib düşmənə ataş açdığın zaman, yəqin ki, dəfələrlə məşhur Koroğlu nərələri çəkmisən! Bu da sənə öz qəhrəman xalqından, öz igid babalarından qalmış bir yadigardır.*

*Azərbaycanın doğma cığırları, bu tərəfdən [sənə əziz olan] çayın, bulağın ... Qoşqar, Kəpəz, Xanbulağın qarlı zirvələri sənin hünərinlə fəxr edir. Ağ saçlı analarımız, dünya görmüş qocalarımız sənə üz tutaraq: “Çörəyimiz sənə halal olsun”, – deyirlər.*

*Tarix göstərir ki, dünyada əbədi qalan bir şey varsa, o da insanlığa göstərilən yaxşılıq və hünərdir! Əsrlər gəlib keçsə də, dağ döşündən gedən cığırlar, qayalara nəqş olunmuş heykəllər və abidələr, bir də söz ustalarının yaratdığı dastanlar – etdiyimiz yaxşılıq və hünəri gələcək nəsillərə nəql edir. Hünər sahibi isə daima gənc və canlı qalır”* (Vurğun (a), v.1.).

Kimdir İsrafil Məmmədov? O, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş ilk azərbaycanlıdır. Şəmkir rayonunun Qapanlı kəndində anadan olan İ.Məmmədov 1939-cu ildə hərbi xidmətə çağrılmış, elə həmin il də İkinci Dünya Müharibəsi başlamışdır. 1941-ci ildə Novqorod yaxınlığında yerləşən İlmen gölü ətrafında alman qoşunlarına sarsıdıcı zərbə vuraraq döyüş tapşırığını qüsursuz yerinə yetirdiyi üçün “Lenin” ordeni və “Qırmızı Ulduz” medalı ilə təltif edilərək Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Bu hadisələrdən sonra Şəmkir və Gəncədə onun şərəfinə tədbirlər keçirilmiş, S.Vurğun da bu tədbirlərdə fəal iştirak etmiş və İ.Məmmədova “bizim İsrafil Məhərrəm oğlu” deyə müraciət etmişdir.

“Kommunist” qəzeti Azərbaycan Yazıçılar İttifaqı ilə birgə 1942-ci ildə ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İ.Məmmədov haqqında kitab nəşr etdirmişlər. Kitabda S.Vurğunun da fikirləri yer alır: *“Faşizm taunundan bəşəriyyəti xilas etmək bu gün üçün azadlıq və səadət uğrunda ən böyük yaxşılıq, ən böyük bir humanizmdir. İsrafil bu şərəfli işdə doğrudan da dastanlara düşəcək, nəğmələrdə səslənəcək bir hünər göstərdi”* (Quliyev və Məmmədov, 2020: 66).

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda S.Vurğunun şəxsi arxiv fondunda İ.Məmmədovla bağlı Ələkbər Ziyatayın yazdığı şeir də yer alır:

*“Əfsanəvi qəhrəman*
*(Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova ithaf edilir)*
*Adın bayraq olmuş ellərimizdə,*
*Qəhrəman ləqəbi halaldır sana*
*Gül-çiçək tutmuşuq əllərimizdə*
*Zəfərlə tez qayıt Azərbaycana!”* (Ələkbər, 1942: v.1.)

Məktubda yazılan həmin şeir “Kirovabad bolşeviki” qəzetində nəşr edilmişdir.

S.Vurğunun müharibə illərində qələmə aldığı məktublar sırasında döyüşçülərə yazılmasa da, tarixi baxımdan əhəmiyyət daşıyan bir məktub da var. Bu məktub 1943-cü ilin 30 sentyabr tarixində şairin böyük qardaşı Mehdixan Vəkilova yazılıb. “Əzizim Mehdixan...”, xitabı ilə başlayan məktubda müəllif qardaşından Aşıq Mirzəyə kömək etməsini xahiş edir (Vurğun (b), 1943: v.1).

Aşıq Mirzə Bayramov (1988-1960) şair, müəllim və Azərbaycan Yazıçılar İttifaqının üzvü olmuşdur. El havalarının gözəl ifaçısı olan ustad aşıq 1927-ci ildə Qazaxda təşkil olunan aşıqlararası müsabiqədə birinci yerə çıxmış, onun ifası 1928-ci ildə Bakıda keçirilən Aşıqların I Qrultayında da bəyənilmiş, 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ongünlüyündə o, Azərbaycan aşıq musiqisini təmsil etmişdir. O vaxtan S.Vurğunla böyük dostluq əlaqələri yaranan Aşıq Mirzə Böyük Vətən Müharibəsində ön və arxa cəbhədə öz sazı və sözü ilə xidmət göstərmiş, əsgər və zabitlərin döyüş ruhunu yüksəltmişdir. Sözügedən məktubunda da S.Vurğun qardaşından aşığa kömək etməsini, onu vətənə xidmətdə dəstəkləməsini xahiş etmişdir. Çünki əsgərlər doğma nəfəs eşidəndə ruhlanırlar, cəbhədən də qələbə sədaları eşidilir. Səməd qardaşına yazdığı məktubu bu cümlə ilə bitirir: *“Axır vaxtlar keyfim lap kökdür”* (Vurğun (b), 1943: v.1).

Bəs şairin xoş əhval-ruhiyyəsinin səbəbi nədir? Sözsüz ki, ön cəbhədə əldə olunan qələbə uğurları. 1943-cü ildə 2 fevral tarixində Stalinqrad uğrunda döyüşlərdə düşmənin darmadağın edilməsindən sonra Qızıl Ordu dalbadal müvəffəqiyyətli həmlələr etmiş, müdafiə mövqeyindən hücum taktikasına keçərək ardıcıl uğurlu əməliyyatlar həyata keçirmişdi.

**Hərbçilərin Səməd Vurğuna yazdığı məktublar**

Arxivdəki cəbhədən yazılan məktublar da tarixi əksəriyyət təşkil edir. Döyüşən əsgərlər tərəfindən yazılmış həmin məktublar, onların gündəlik həyatı, döyüşlər, dostları və ailələri üçün hissləri haqqında ətraflı məlumat verir. Bu məktublar müharibənin insani üzünü və çətinliklərini əks etdirir. Məktublar, həmçinin, müharibə zamanı Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıqları və şücaətini də əks etdirir.

Leninqrad cəbhəsindən kapitan Rizvan Zeynalovun rus dilində yazdığı məktubda azərbaycanlıların şücaətindən, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsindən bəhs edilir. Məktub belə bir qeydlə başlayır: *"Leninqrad cəbhəsi. 18.08.1944"* (Зейналов, 1944). Məlumdur ki, Böyük Vətən Müharibəsi zamanı Sovet İttifaqının ikinci şəhəri və sovet proletariatının rəhbərinin adını daşıyan şəhər 8 sentyabr 1941-ci ildən 27 yanvar 1944-cü ilədək blokadada qalmışdır. 872 gün davam edən bu hərbi blokada zamanı yüz minlərlə insan humanitar böhranın qurbanı olmuş, lakin şəhər qəhrəman əsgər və zabitlərin, rəşadətli mülki xidmətçilərin sayəsində düşmənə boyun əyməmişdir. 1942-ci ilin 22 dekabrında "Leninqradın müdafiəsinə görə" medalı təsis olunmuş, azərbaycanlılardan C.Əmirov, M.Hüseynov, H.Bağırov, M.Abbasov, Səmədov qardaşları və başqaları mərdlik nümunəsi göstərdikləri üçün bu medalla təltif olunmuşlar. "Bakılı şahin" ləqəbi ilə tanınan təyyarəçi Rizvan Zeynalov (1914-1997) da onlardan biri idi.

Rizvan Zeynalov 1936-cı ildə Frunze adına Hərbi-Dəniz Məktəbini, 1937-ci ilin oktyabrında isə Rostov vilayəti Yeysk Hərbi-Dəniz Aviasiya Məktəbini bitirmişdir. O, İkinci Dünya Müharibəsi zamanı pilot kimi SSRİ-Finlandiya müharibəsində, Leninqradın müdafiəsində, Baltikyanı ölkələrin faşistlərdən azad olunmasında iştirak etmişdir. Verilən tapşırıqları qüsursuz yerinə yetirdiyi üçün 7 mart 1943-cü ildə "Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir. 1980-ci ildə tarix elmləri doktoru elmi dərəcəsini almışdır.

Böyük Vətən Müharibəsi haqqında bir neçə kitabın müəllifidir (Зейналов, 1975; Буниятов, 1990). Haşiyəyə çıxaraq qeyd edək ki, R.Zeynalov Birinci Qarabağ Müharibəsi zamanı da dəfələrlə cəbhədə olmuş, qəhrəmalarımızla şəxsən görüşmüş, sonradan onların şərəfinə "Azərbaycanın Milli Qəhrəmanları" kitabını qələmə almışdır (Zeynalov, 1996).

Ali savadlı təyyarəçi olan R.Zeynalov Fin körfəzində, Baltik dənizində düşmən aerodromlarını və nəqliyyat vasitələrini bombardman etmişdir. O və onun rəhbərlik etdiyi təyyarəçi qrupu sayəsində Leninqradın blokadası zamanı Ladoqa gölü üzərindən keçən "həyat yolu" bir gün də olsun fəaliyyətini dayandırmamışdır. Bu isə heç də asan başa gəlməmiş, təyyarəçilərin bəzilərinin həyatı bahasına mümkün olmuşdur.

R.Zeynalovun Səməd Vurğuna məktubunda oxuyururq: *"... Əziz Səməd Vurğun! Azərbaycanın təyyarəçi oğulları və Bakılılar 1944-cü ilin bu günlərində Leninqrad frontunda çox aktiv iştirak edirlər. Almanlara qarşı Leninqrad döyüşlərində və Narva şəhərinin azad olunması uğrunda Azərbaycanlı və Bakılılar şücaət və qəhrəmanlıq göstərmişlər.*

*1944-cü ilin qışında Leninqrad döyüşlərində Bakılı təyyarəçilər Vasiliy Borodin və Vasiliy Krılov qəhrəmancasına həlak olmuşlar. Tapşırıqları layiqincə yerinə yetirib, almanlarla döyüşdə şücaət göstərdikləri üçün Bakılı Vladimir Abramov və Yevgeni Sıqanov Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif ediliblər. Narva şəhərinin azad olunması uğrunda döyüşlərdəki cəsarətinə görə isə Azərbaycanlı leytinant Hüseyn Bağırov, kapitan Rizvan Zeynalov və başqaları medallarla təltif edilmişlər...*

*Kapitan Rizvan Zeynalov"* (Зейналов, 1944: v.1.).

Bəli, R.Zeynalovun yüksək dəqiqliklə qurduğu döyüş planı, həyata keçirdiyi hərbi əməlyatlar, düşməni mat qoyan uçuşları Böyük Vətən Müharibəsinin şanlı səhifələridir.

Məktubda adı qeyd edilən Vasiliy Borodin Krasnodar diyarının Yeysk şəhərində anadan olmuş, 1937-ci ildə orduya çağırılmışdır. Qırmızı Bayraqlı Baltik Donanmasının 13-cü Qırıcı Aviasiya Alayının 1-ci eskadrilyasında xidmət etmişdir. Böyük Vətən Müharibəsi illərində 61-ci Qırıcı Aviasiya Briqadasına komandirlik edib. 10 noyabr 1943-cü ildə Yak-7B qırıcısında hücum təyyarəsini müşayiət edərkən düşmən FİAT-50 qırıcısını vurmuşdur. Şepelev mayak yaxınlığında toqquşma zamanı həlak olmuşdur. O, ölümündən sonra Qırmızı Bayraq ordeni ilə təltif edilmiş və kursantı Mixail Solovyovun idarə etdiyi qırıcı döyüş təyyarəsinə onun adı verilmişdir.

*"Düşmən döyüşçülərinin qarşısını almaq üçün Borodin dərhal uçuşla təkbətək hücum etdi. "FİAT"lar buludlara doğru uçdu. Lakin onların lideri, görünür, təcrübəli idi, mübarizədən çəkinmirdi. Nəhayət, onun əsəbləri təslim oldu, son anda nasist öz ölümcül kursundan dönə bildi. Borodin onu təqib etməyə başladı. Onun yoldaşları başqa təyyarələrlə məşğul olarkən, Vasiliy Borodin məhz bu təyyarə ilə məşğul idi. "FİAT"ın quyruğuna yaxınlaşmaq cəhdlərindən imtina edən Baltik pilotu yenidən təkbətək hücuma keçdi və yenə düşmən üz çevirdi. Sonra üçüncü dəfə sovet pilotu düşmənlə ön yarımkürədən vuruşdu. Artıq Borodinin döyüş sursatı tükənmişdi və o, son çarəni toqquşma zərbəsi vurmaqda görürdü. Düşməni geri qaytarmaq üçün üçüncü cəhd uğursuz oldu. Qırmızı ulduzlu qırıcının qanadı onun təyyarəsini əzdi. Döyüş aşağı hündürlükdə getdiyindən Vasili Borodinin paraşütündən istifadə etməyə vaxtı yox idi"* (Иноземцев).

Vladimir Abramov 1921-ci ildə doğulmuş, 1939-cu ildə Bakı aeroklubunu bitirmişdir. 22 iyul 1944-cü ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. O, 22 iyun 1941-ci ildən 22 aprel 1942-ci ilədək 308 döyüş, 70 quru hücumu və 87 kəşfiyyat missiyasını yerinə yetirmişdir. Həmçinin hava döyüşlərində doqquz düşmən təyyarəsini məhv etmişdir. Onlardan ikisi fərdi, yeddisi qrup döyüşlərində vurmuşdur.

*"Vladimir Fedoroviç Abramov 1943-cü il mayın 31-də Baltik Donanmasının 10-cu Mühafizə Aviasiya Alayına çevrilən məşhur 71-ci Qırıcı Aviasiya Alayının tərkibində döyüşmüşdür, burada məşhur dəniz asları A.Baturin, V.Mixalev, K.Solovyev və başqaları da döyüşürdü.*

*V.Abramov müharibə başa çatdıqdan sonra təxminən 30 il hərbi hava qüvvələrində xidmət etmişdir. O, reaktiv qırıcıların uçuşunu mənimsəyən ilk dəniz pilotlarından biri idi. O, pilot-inspektor, daha sonra Şimal Donanmasının uçuş müfəttişliyinin rəisi vəzifələrində çalışıb. 1959-cu ildə Baş Qərargahın Hərbi Akademiyasının Ali Akademik Kurslarını bitirib. Aviasiya general-mayoru Abramov 1974-cü ildə tərxis olunub və Moskva vilayətinin Zarya kəndində yaşayıb. 1985-ci il mayın 23-də vəfat edib.*

*O, 22 iyul 1944-cü ildə Sovet İttifaqı Qəhrəmanı, bundan başqa Lenin ordeni, dörd Qırmızı Bayraq ordeni, 1-ci dərəcəli Vətən Müharibəsi ordeni, iki dəfə Qırmızı Ulduz ordeni və medallar ilə təltif edilmişdir"* (Бодрихин, 1998: s.9).

Yevgeni Sıqanov milliyətcə rus olsa da, Bakıda anadan olmuş və Bakı aeroklubunu bitirmişdir. General-mayor rütbəsinə kimi yüksələn Y.Sıqanov Böyük Vətən Müharibəsi illərində İ-16, LA-565 qırıcı təyyarələrini idarə edərək 65 dəfə hava döyüşlərində iştirak etmiş və 18 düşmən təyyarəsi məhv etmişdir. Onun da iştirak etdiyi hava hücumunu dəf etmək üçün döyüş əməliyyatı tarixi xronikada belə şərh edilir: *"Qvardiya pilotları düşmənin iki təyyarəsini məhv etmişlər.*

*Günortaya yaxın pilotlarımız havaya qalxdılar. Onlara bombardmançı və hücum təyyarələri üçün mühafizə və dəstək vermək tapşırılıb.*

*1500 metr yüksəklikdə Baltik Donanması iki "Messerschmitt" və altı "Focke-Wulf 190"-la qarşılaşdı. Mühafizəçilər düşmənlə vuruşdular. Mühafizə kapitanı Yevgeni Sıqanov ilk hücuma keçdi. Bir neçə saniyə bir faşistin taleyini həll etdi. Alman faşisti özünə gəlməyə macal tapmadan sovet pilotu ona məqsədyönlü şəkildə ard-arda zərbələr endirməyə başladı.*

*Aşağıdan və arxadan sürətli hücum Y.Sıqanovun parlaq qələbəsi ilə başa çatdı. "Focke-Wulf 190" təyyarəsi birbaşa suya çırpıldı.*

*Təyyarəmizin ikinci cütlüyünə pilot Kostilyev rəhbərlik edirdi. Düşmən təyyarələri bizim cütlükdən aşağıda idi. Nasist pilotu Kostilyevin hücumu dəf edə bilmədi. Alman təyyarəsi N saylı adanın yaxınlığında suya çırpıldı"* (Кормушенков, 1943: 2).

Qeyd edilən Leninqrad müharibəsi 8 sentyabr 1941 – 27 yanvar 1944-cü il aralığında baş vermiş və tarixə "Leninqrad blokadası" olaraq düşmüşdür. 1943-cü ildə Sovet ordusu alman mühasirəsini pozub almanları qərbə tərəf sıxışdıra bildilər. 1945-ci ildə şəhər Lenin ordeni ilə təltif edilmiş və Sovet İttifaqının Qəhrəman şəhəri adlandırılmışdır.

*"1941-ci ilin payızında alman-faşist ordusu Baltikyanı ölkələri, Ukrayna və Belorusiyanı zəbt edib, Leninqradı mühasirəyə aldı, böyük qüvvələrlə Moskvaya doğru hücuma keçdi. Faşist komandanlığı Moskvanı hələ 1941-ci ilin yayında ələ keçirməyi planlaşdırsa da, sovet ordusunun müqaviməti buna imkan vermədi. Alman-faşist komandanlığı 1941-ci ilin sentyabrında Moskvanı almaq üçün yeni qoşun – canlı qüvvə və texnika gətirdi. Canlı qüvvəyə görə faşistlər Moskva müdafiəçilərindən 1,8 dəfə, tankların sayına görə 1,5, topların, minomyotların sayına görə 1,25 dəfə və təyyarəçilərin sayına görə 3,2 dəfə çox idi.*

*1944-cü ilin əvvəlində qızıl ordunun bütün cəbhə boyu hücumu başlandı. Yanvarın 14-dən iki həftə davam edən döyüşlərdə Leninqrad və Volxov cəbhəsinin, habelə Baltik donanmasının qoşunları Leninqrad ətrafında düşmənə ağır zərbə endirərək, onu 70-100 km geriyə oturtdu, Leninqradın blokadasına son qoyuldu"* (Qaffarov (məsul red), 2008: s.33, 48).

Cəbhədən yazılan məktublardan biri də Horadiz rayonunun Kürdmahmudlu kəndinin sakini zabit Həbib Quliyevə məxsusdur. O, cəbhədə baş verənlər haqqında məktubda məlumat vermişdir:

*"Cəbhədən məktub*

*Azərbaycan xalqının dahi və sevimli oğlu Səməd Vurğuna cəbhədən qvardı serjantı Quliyev Həbib salam söyləyir.*

*Təbiidir vətən uğrunda vuruşan qızıl əskərin əhvalını xəbər alsan, çox yaxşıdır və dayanmadan vətən uğrunda, Stalin uğrunda düşmənə qarşı vuruşuruq...*

*...Qızıl ordu hücuma keçərkən azğın nemes 20-dən ağır tank ötürdü. Mən onun dördünü öz topum ilə vurdum yandırdım, sıradan çıxartdım. Ona görə mənə mükafat medal verdilər və partiya sırasına keçirdilər. Yenə də söz verirəm Azərbaycan xalqının adını yüksəldərək vətən uğrunda və Azərbaycan xalqının oğlu Bağırov uğrunda son damla qanımıza kimi döyüşəcəyik.*

*Yazan Quliyev Həbib Hüseyn oğlu Horadiz rayonu Kürdmahmudlu kəndindən.*

*25.12.1944"* (Quliyev, 1944: v.1.).

Bu məktubdan aydın olur ki, Böyük Vətən Müharibəsində Azərbaycanın hər bir bölgəsindən vətəni qorumaq üçün canını sipər edən qəhrəmanlar iştirak etmişlər.

Daha bir məktub isə Belarusiya cəbhəsində döyüşən Nəcəfov soyadlı azərbaycanlı əsgər tərəfindən yazılmışdır:

*"Hömətli Səməd Vurğun yoldaş!*

*1 May bayramınızı təbrik edirəm və uzun ömür, sağlam bədən arzu edirəm.*

*Cəbhədən biz döyüşçülərin atəşli salamını qəbul etməyinizi xahiş edirəm.*

*Sizin bizə 1 May münasibətilə göndərdiyiniz hədiyyəni (kitabları) bu gün kəşfiyyatdan qayıdarkən mənə verdilər. Bu günkü günümdə üçüncü şadlıq oldu: birincisi 1 May gününü qarşılamağımız, ikincisi kəşfiyyatı layiqincə yerinə yetirməyimiz, üçüncüsü isə Sizin hədiyyəniz. Çünki 3 il ərzində birinci dəfə Azərbaycan dilində kitab əlimizə alıb oxuyuruq. Ona görə Sizə səmimi qəlbdən təşəkkür edirik.*

*Yoldaş Səməd Vurğun, Sizə və eləcə də Azərbaycan xalqına söz veririk ki, son damla qanımıza qədər biz Azərbaycan oğulları düşmənlə qarşı-qarşıya vuruşaraq, öz torpaqlarımıza alnı açıq qayıdacağıq. Kitablarda olan bir neçə şeirləri oxudum. Bütün cəbhədə olan döyüşləri olduğu kimi xatırladır.*

*Azərbaycan yazıçılarına biz döyüşçülərdən salam!*

*Nəcəfov Ş.N.*

*Qərb cəbhəsi döyüşən ordu. Belarusiya.*

*01.05.1944"* (Nəcəfov, 1944: v.1.).

Göründüyü kimi, məktubda 1943-cü ilin 1 may tarixində Belarusiya cəbhəsində baş verən hadisələr əksini tapmışdır. Tarixi xronikalarda həmin ilin iyul-avqust aylarında Alman qüvvələrinin

təşkil etddiyi Kursk çıxıntısındakı döyüşlərdə əldə olunan qəti qələbə belə təsvir edilir: *"Dnepr döyüşü zamanı Kurskdakı qələbədən sonra Qırmızı Ordu Belarusun şərq sərhədinə yaxınlaşdı. 23 sentyabr 1943-cü ildə ilk rayon mərkəzi Kamarın azad edildi. Payız-qış hücumu zamanı 36 rayon və vilayət mərkəzləri Qomel və Mazur tam və ya qismən Sovet İttifaqına qatıldı. Beləliklə, Belarusun azad edilməsinin birinci mərhələsi başa çatdı"* (Беларусь у 2-й сусветнай вайне).

Baxış Qəhrəmanovun cəbhədən yazdığı məktublarda da Azərbaycanlıların Böyük Vətən Müharibəsində göstərdikləri qəhrəmanlıqlardan danışılır və vətəni canları bahasına müdafiə edəcəklərini qeyd edirlər (Qəhrəmanov, 1942)

Bunlardan başqa cəbhədən göndərilən bəzi məktublarda şairin Azərbaycan tarixinin qəhrəman oğullarına və torpaqlarımızın azad olunmasına dair əsərlər yazmasını xahiş edirlər (Abbasov; Abbasov, C. 1944; Bayramova, 1944).

Növbəti məktub isə müharibədən sonra yazılmışdır və Qrinevidski soyadlı hərbi hissə komandirinə məxsusdur. O, S.Vurğundan Sovet Ordusu döyüşçülərinə məktub yazmasını xahiş edir.

*"Sovet Ordusunun qurulmasının 35-ci ildönümü yaxınlaşır. Bu bayramı Sovet Ordusu Vətən qarşısında layiqli borcunu yerię yetirərək qarşılayır. Təhsil və xidmət zamanı Sovet xalqı ilə ünsiyyət onları hər gün ruhlandırır. Sizdən Sovet Ordusuna ruhlandırıcı, vətənpərvər məktub yazmağınızı xahiş edirik. Sizin isti sözləriniz onları hərbi və siyasi sahədə yeni uğurlar əldə etməyə həvəsləndirəcək.*

*Siz məktubunuzu 15 fevraldan gec olmayaraq göndərsəniz yaxşı olardı.*

*Sizə ürəkdən əsgər salamı göndəririk və vətən uğrunda fəaliyyətinizdə uğurlar arzulayırıq.*

*Hərbi hissə komandiri V.Qrinevidski*

*1953. Yerevan"* (Гриневидски, 1953: v.1.).

Bu məktub qələbədən sonra da S.Vurğunun ordu sıralarında populyar sima olduğunun göstəricisidir. Məktubun Yerevandan gəlməsi isə həmin ərazidə yerləşən hərbi hissədə azərbaycanlı əsgərlərin sayca çox olduğunu nümayiş etdirir.

**Yazıçı və şairlərin Səməd Vurğuna yazdığı məktublar**

S.Vurğun arxivindəki məktubların bir qismi İkinci Dünya Müharibəsində iştirak etmiş azərbaycanlı yazıçı və şairlərimizə aiddir. Onlardan biri məşhur şair, ədəbiyyatşünas Cəfər Xəndana məxsusdur. Azərbaycan dilində, ərəb əlifbası ilə yazılan məktubda deyilir:

*"Hörmətli Səməd!*

*Göndərdiyin salam gəlib çatdı. Sağ ol! Biləsən ki, mən cəbhə qəzetində işləyirəm. Bizə şeirlər göndər. Cənub cəbhəsi döyüşçüləri səni çox sevirlər. Burada olan əsgərlərin çoxu Azərbaycanlılardır. Şeir göndərməyi unutma.*

*"Cəbhədən şeirlər" adlı bir kitabça göndərdim. Cəmi 17 şeirdir. Kömək etsən, Azərnəşr nəşr edər.*

*Səməd! İndi buralara gəlsən, görüşə bilərik. Mən 7-8 ay ön sıralarda vuruşduqdan sonra bu işə başlamışam. Necə sağ qaldığımı özüm də bilmirəm...*

*İndi yazmağa imkanım vardır. İdeyalar çoxdur, yazacağam.*

*Hələlik sağlıqla.*

*Səməd, bizim uşaqlar ilə anasını yazıçılar konfransına təhkim etmək mümkünsə kömək eylə. Vəziyyəti özün yaxşı bilirsən.*

*Yoldaşlarıa, dostlara, Xavər bacıya salam. Yusqanı əvəzimdən öp. Onunla çəkdirdiyim şəkil yadıma düşdü.*

*Komunist salamıyla. Sizin Cəfər*

*21.06.1942"* (Xəndan, 1942: v.1.).

Müharibə illərində C.Xəndan Zaqafqaziya, Şimali Qafqaz, Cənub-Qərb cəbhələrində baş təlimatçı olmuş və bir çox qəzetlərdə redaktor müavini kimi fəaliyyət göstərmişdir.

Məktub vasitəsilə göndərdiyi şeirlər elə həmin ildə nəşr edilmişdir (Xəndan, 1942).

Daha bir şair Şirzad Əlizadənin məktubu da arxivdə qorunmaqdadır. Məktubdan məlumumuz olur ki, şair ikinci dəfə cəbhədə iştirak etmişdir:

*"Əziz və hörmətli şairimiz Səməd Vurğun!*

*Əvvəla ağır topların, nəhəng bombaların gurultusunda titrəyən, alovların altında yanan cəbhə xəttindən Sizə səmimi və atəşli qızıl əskər salamı göndərirəm!*

*Əzizim Səməd ikinci dəfədir ki, vətən müharibəsi cəbhəsində iştirak edirəm. Baxmayaraq ki, Kirovabadda bəzi müftə yeyənlər mənim taleyimi düzgün həll etmədilər, ancaq mən yenə də vətənin namuslu bir şair oğlu kimi öz borcumu yerinə yetirirəm.*

*Əzizim Səməd mən bu saat cənubi-şərq cəbhəsinin "Podxarkov" istiqamətində döyüşürəm. Mən bir yazıçı olduğum üçün, qələmimi silaha çevirdiyim üçün rota komandirimiz xatirimi çox istəyir. Bundan başqa, mən rusca bilmək ilə yoldaşlarıma kömək edirəm. Komandirin mübariz əmrlərini onlara çatdırıram. Özüm isə rota komandirinin bir neçə əhəmiyyətli tapşırığını yerinə yetirdiyim üçün məni həmişə nümunə olaraq göstərir. Çox yaxşı qeydlərim var. Allah qoysa, hissəmiz istirahətə çıxanda redaksiyaya şeir yazıb göndərəcəm. Əzizim Səməd bu məktubu Sizə snoryad atəşləri altında yazıram. Xahiş edirəm ki, bu məktubumu düzəldib qəzetdə buraxasınız. Məndən salam bütün yazıçı və şair yoldaşlara.*

*Əlizadə Şirzad.*

*02.06.1943"* (Əlizadə, 1943: v.1.).

İkinci Dünya Müharibəsi zamanı 1941-1943-cü illər arasında dörd Xarkov döyüşü: 1) 1941-ci ilin oktaybr ayında; 2) 1942-ci ilin mayında; 3) 1943-cü ilin fevral-mart aylarında; 4) 1943-cü ilin avqust ayında baş vermişdir. Məktubdan aldığımız məlumata əsasən, Ş.Əlizadə məhz bu döyüşlərdə iştirak etmişdir.

Daha bir məktub isə Müvsüm Poladova aiddir. O, Azərbaycan dilində ərəb əlifbası ilə yazdığı məktubda Azərbaycan oğullarının Böyük Vətən Müharibəsi zamanı göstərdiyi qəhrəmanlıqlardan bəhs edərək onlara şeir ithaf etmişdir:

*"Yenilik də, hünər də hamısı bizdədir,*
*Vətənə Stalinə məhəbbət yürəyimizdədir.*
*Sıramızda Qarqaşoflar Suvorovlar da var,*
*Çoxdu canımızda, qanımızda yenilik doğar"* (Poladov, 1941: v.1.).

Əslən Qazax rayonundan olan M.Poladov 1937-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna direktor təyin edilməsinə baxmayaraq, Böyük Vətən Müharibəsinin ilk günlərindən cəbhəyə yollanmış və Krım cəbhəsində döyüşlərdə fəal iştirak etmişdir. "Döyüşdə xidmətlərinə görə" medalı ilə təltif edilmişdir.

Növbəti məktub isə şair, tərcüməçi Abdulla Faruqa məxsusdur. O məktubunda yazır:

*"Azərbaycan Sovet Yazıçıları İttifaqına!*

*Salam yoldaşlar, özü də həqiqi, səmimi töhvə salamı. Mən artıq 3 gündür ki, döyüşə girmişəm. İkinci dəfədir ki, mən onlarla cəbhə meydanında üz-üzə gəlirəm. Mən Azərbaycan xalqına, sovet hökumətinin tərbiyəsi, kommunist partiyasının rəhbərliyi ilə bir sovet yazıçısına layiq, çətin, sədaqətlə vuruşmağa and içirəm. Məni yetişdirən xalq, azad ölkə, gözəl vətən Marks Engelsin, böyük Leninin və Stalinin parlaq ideyaları uğrunda ölümə belə getməyə hazıram.*

*Sizi də öz əsərləriniz də ordumuzun qəhrəman vuruşmalarını, xəyanətlə yurdumuza soxulmuş, vətənimizi əsarət altına almağa, analarımızın, bacılarımızın namusuna, hətta körpə uşaqlarımızın beşikdə qırmağa çalışan canilər, cəlladlar ordusuna, faşizm canavarlarına qarşı qəti çarpışmasını, ana torpaqlarımızdan faşizm murdarlarında təmizləyən şanlı qızıl ordunun, onun ölməz qəhrəmanlarının daha parlaq, daha sənətkaranə təsvir etməyə çağırıram.*

*Bütün yazıçı, artist yoldaşlara Azərbayacanın qabaqcıl intelligensiyasına salam.*

*Döyüşən ordu. A.Faruq*

*28.04.1944"* (Faruq, 1944: v.1.).

A.Faruq 1934-cü ildə Azərbaycan Yazıçılar Birliyinin üzv qəbul edilmiş və bir çox əsərlərin müəllifi olmuşdur (Faruq, 1936; Faruq, 1938). O, latın qrafikalı Azərbaycan əlifbasından kiril

qrafikasına keçidə qarşı açıq çıxış etdiyi üçün təqiblərə məruz qalmış, "günahını yumaq üçün" Böyük Vətən Müharibəsi başlandığı ilk günlərdən ön cəbhəyə göndərilmişdi. Kiçik leytenant rütbəsində A.Faruq əsərləri "Qızıl əsgər" cəbhə qəzetində nəşr edilmişdir. Gənc şair 1944-cü ildə Taqanroq ətrafı döyüşlərdə, əfsus ki, həlak olmuşdur.

İkinci Dünya Müharibəsi zamanı gəlirin əsas hissəsinin müharibəyə yönləndirilməsi insanların maddi durumunda çətinliklər yaradırdı. Məktublarda müharibə dövrünün sosial və siyasi həyatına dair dəyərli məlumatlar verilir. Bu məktublar müharibənin təsiri altında olan insanların həyatları, iqtisadiyyatı və sosial münasibətləri haqqında məlumat verir. Belə vəziyyətdə olanlardan biri də Azərbaycanın məşhur şairi Mirvarid Dilbazi idi. Azərbaycan dilində, ərəb əlifbası ilə yazılmış həmin məktubda müəllif çətin vəziyyətdə olduğunu və uşağını həkimə belə aparmağa imkanının çatmadığını qeyd edir. M.Dilbazi S.Vurğuna üz tutaraq ona dövlət tərəfindən yardım edilməsinə köməklik göstərməsini xahiş edir (Dilbazi, 1943: v.1.).

Erməni şairi Tatul Hüryan da S.Vurğuna cəbhədən məktub yazaraq ailəsinə göstərdiyi köməyə görə dahi şairə təşəkkürlərini bildirmişdir (Татул, 1942). Həmin məktub 1974-cü ildə Azərbaycan qəzetində dərc edilmişdir (Tatul, 1974).

Məktublardan da göründüyü kimi, S.Vurğun şair həmkarlarına bacardığı köməkliyi göstərmiş və əlindən gələn yardımı əsirgəməmişdir. O cəbhədə olan dostlarının əsərlərini də qəzet və jurnallara təqdim etmişdir.

**Redaksiyalardan gələn məktublar**

S.Vurğun müharibə illərində cəbhədə döyüşən qəhrəman oğullara dəstək vermək üçün daim qəzet və jurnallarda vətənpərvərlik şeirləri, yazıları dərc etdirirdi. Bu baxımdan redaksiyalar özləri də şairə müraciət edirdilər.

*"Çox hörmətli yoldaş Səməd Vurğun!*

*Çoxdandır gözlənilən gün olan Sovet torpaqlarının alman faşist qoşunlarından tam azad olunduğu gün yaxınlaşmaqdadır. "Боец РККА" redaksiyası olaraq Zaqafqaziya frontunun generalları, zabitləri, döyüşçüləri ilə hiss və düşüncələrinizi və qələbə uğrunda yaradıcılığınıza necə güc verdiyinizi bölüşməyi xahiş edirik.*

*Materialın Azərbaycan və ya rus dilində təcili olaraq redaksiyanın ünvanına təqdim etməyi xahiş edirik.*

*Redaktor podpolkovnik İ.Lavruxin.*

*26.10.1944"* (Лаврухин, 1944: v.1.).

Hətta müharibə bitdikdən sonra da redaksiyalardan məktublar göndərilmiş və şairin vətənpərvər yazılarını nəşr etməyi xahiş etmişlər:

*"Hörmətli, Səməd Vurğun!*

*Əsgər qəzeti olan "На страже" redaksiyası bütün əsgər və zabitlər adından Sizdən xahiş edir ki, qəzetimiz vasitəsilə əsgərlərimizə ədəbiyyatımızın uğuru, sovet ordusunun mübarizə və əzmi haqqında danışasınız. Qəzetin növbəti sayı 7 noyabr 1950-ci ildə nəşr ediləcək.*

*Hörmətli Səməd Vurğun! Kiçik bir qeydi diqqətinizə çatdırmaq istərdik ki, əsgər və zabit heyətimizi xidmətdə daha yaxşı nəticələrlə ruhlandırmaq və hərbi və siyasi cəhətdən hazırlıqlı olmaları üçün 1 noyabr tarixinə kimi bizə geri dönüş etməyinizi xahiş edirik.*

*Ümidvarıq ki, Siz bizim və hərbi oxucuların xahişini dəyərləndirəcək və bizə qeyd yazacaqsınız.*

*Səbirsizliklə Sizin cavabınızı gözləyirik"* (Редакция "На страже", 1950: v.1.).

**Nəticə**

Göründüyü kimi, Səməd Vurğunun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi arxivindəki məktublar Böyük Vətən Müharibəsi illərində Azərbaycan xalqının yaşadıqlarını olduğu kimi əks etdirir. İstər şairin döyüşçülərə, istərsə də cəbhədəkilərin şairə ünvanladığı məktubları və S.Vurğunun həm ön, həm də arxa cəbhədə olan həmkarları ilə yazışmalarını nəzərdən keçirdikdə müharibənin ilk günündən düşmən üzərində qəti qələbənin əldə

olunduğu günədək Azərbaycanın və düşmənlə üzbəüz mövqedə duran azərbaycanlıların yaşadıqlarının şahidi oluruq. S.Vurğunun şəxsi arxivindəki məktublarda əksini tapan faktlar tarixi xronikalarla da, şairin məqalə və şeirlərindəki təsvirlərlə də uyuşmaqdadır. Bu da onu göstərir ki, böyük sənətkar bilavasitə döyüş bölgələrində baş verənləri yaxından izləmiş və əsərlərinə gətirmişdir. O müharibə illərində təkcə şair kimi yox, həm də ictimai xadim kimi fəaliyyət göstərmiş, əsgəri-zabiti döyüşə, arxa cəbhə fədailərini isə əmək şücaətinə ruhlandırmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:


Abbasov, B. *Səməd Vurğuna məktub*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 308. 1 vərəq.

Abbasov, C. *Səməd Vurğuna məktub*. (1944-cü il, 15 avqust). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 315. 1 vərəq.

Bayramova, M. (1944-cü il, 10 oktyabr). *Səməd Vurğuna məktub*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 395. 1 vərəq.

Dilbazi, M. *Səməd Vurğuna məktub* (1943-cü il, 08 iyun). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 498. 1 vərəq.

Ələkbər, Z. *Əfsanəvi qəhrəman* (Kirovabad). (1942). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 1586. 1 vərəq.

Əlizadə, Ş. *Səməd Vurğuna məktub* (1943-cü il, 02 iyun). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 522. 1 vərəq.

Faruq, A. (1936). *Döyüş yollarında*. Bakı: Azərnəşr, 35 s.

Faruq, A. (1938). *Qızıl əsgər şeirləri*. Bakı: Azərnəşr, 55 s.

Faruq, A. *Döyüşən ordu* (1944-cü il, 28 aprel). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 931. 1 vərəq.

Xəndan, C. *Səməd Vurğuna məktub* (1942-ci il, 21 iyun). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 1037. – 1 vərəq.

Xəndan. C. (1942). *Cəbhə şeirləri*. Bakı: Azərnəşr, 110 s.

Qaffarov, T. (məsul red). *Azərbaycan tarixi: (yeddi cilddə),* (2008), (cild 7). Bakı: Elm, 608 s.

Qəhrəmanov, B. (1942, 15 yanvar). *Döyüşən ordu*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 467. 2 vərəq.

Quliyev, H. *Cəbhədən məktub* (1944-cü il ,25 dekabr). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 484. 1 vərəq.

Quliyev, M. və Məmmədov, Ə. (2020). *Gəncənin yetirməsi, bizim ilk Sovet İttifaqı Qəhrəmanımız: İsrafil Məmmədov*. Bakı: Adiloğlu, 184 s.

Məmmədova, M. və Paşayeva, M. (tərt. ed.). (2010). *M.Səməd Vurğun arxivinin təsviri*. Bakı: Nurlan, 388 s.

Nəcəfov, Ş.N. *Döyüşən ordu* (1944-cü il, 1 may). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, s.v.786. 1 vərəq.

Poladov, M. Səməd Vurğuna məktub (1941-ci il, 08 avqust). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 818. 2 vərəq.

Tatul, H. Cəbhədən məktublar (1974). *Azərbaycan qəzeti*. № 12. s.186-187.

Vurğun, S. *İsrafilə məktub*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 298. 1 vərəq. (a)

Vurğun, S. *Mehdixan Vəkilova məktub*. (1943). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 296. 1 vərəq. (b)

Zeynalov, R.E. (1996). *Azərbaycanın Milli Qəhrəmanları*. Bakı: Gənclik, 136 s.

Беларусь у 2-й сусветнай вайне. https://web.archive.org/web/20060211101155/http://albaruthenia.by.ru/war2.htm

Бодрихин, Н.Г. (1998). *Советские асы. Очерки о советских летчиках*. Москва: ЗАО КФК "ТАМП", 345 с.

Буниятов, З.М. (1990). *От Кавказа до Берлина*. Баку: Азернешр, 224 с.

Гриневидски, В. *Письмо Самеду Вургуну* (1953 года). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 476. 1 vərəq.

Зейналов, Р. *Лениниградский фронт.* (1944 года, 18 август). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 593. 1 vərəq.

Зейналов, Р.Э. (1975). *Герой Советского Союза Кафур Мамедов*. Баку: Гянджлик, 24 с.

Иноземцев, И. Г. Тараны в северном небе. https://militera.lib.ru/h/inozemtsev_ig/04.html

Кормушенков, К. (1943, 25 мая) Летчики-гвардейцы сбили два вражеских самолета. *Красный Балтийский Флот*. № 120. с.2.

Лаврухин, И. *Боец РККА* (1944 года, 26 октября). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, saxlama vahidi 1142. 1 vərəq.

Редакция “На страже”. (1950 года, 23 октября). *Письмо Самеду Вургуну*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, s saxlama vahidi 779. 1 vərəq.

Татул, Г. (1942 года, 14 мая) *Письмо Самеду Вургуну*. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 27, s saxlama vahidi 914. 1 vərəq.